**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

Haraya: **Təmimi**
Göndərilmə nömrəsi:_s/16_-4396/16/17____Tarix:___24.02.17
Sənəd necə göndərilir: Elektron poçt
Səhifələrin sayı:__ 1____ Əlavə olunur: ________
Məhdudluğu qrifi: Adi
Təcililiyi: Əməli
Vacibliyi: Vacib

**Azərbaycan Respublikasının bütün diplomatik nümayəndəlik və konsulluqlarının rəhbərlərinə**

"Maliyyə sənədlərinin imzalanması və xəzinədar vəzifəsinə dair"

**Hörmətli diplomatik nümayəndəlik və konsulluqların rəhbərləri,**

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin İ-45 nömrəli 16 mart 2011-ci il il tarixli əmrinə uyğun olaraq baş mühasibin və ya baş mühasib olmadıqda xüsusi sərəncamla imza etmək səlahiyyəti verilmiş mühasibatlıq işçisinin imzası olmayan sənədlər etibarsız hesab edilir və icra üçün qəbul edilmir. Bu səbəbdən, maliyyə və bank əməliyyatlarının aparılmasında diplomatik nümayəndəliyin və konsulluqların rəhbərinin və maliyyə məsələləri üzrə attaşelərin imzaları birlikdə təsdiq olunmalıdır.

Eyni zamanda qeyd etmək istərdik ki, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-16 nömrəli 16 iyul 2013-cü il tarixli Qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda kassa əməliyyatlarının aparılması" Qaydalarının 4.22-ci bəndində xəzinədar ştatı olmayan təşkilatlarda kassa əməliyyatlarının yerinə yetirilməsi təşkilatın rəhbərinin əmri ilə başqa işçiyə (ştatdankənar işçilər istisna olmaqla) həvalə edilir və onunla tam maddi-məsuliyyət barədə fərdi müqavilə imzalanır. Bu səbəbdən rəhbər işçi xəzinədar vəzifəsinə təyin edilə bilməz.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq müvafiq tədbirlər görülməsini xahiş edirik.

Hörmətlə,

MMVİ-nin rəisi Lamiyə Canəhmədova

MMVİ-nin şöbə müdiri Eldar Qasımov
24.02.2017-ci il.
Katiblik üçün: İstinadsız